**UOT: 821.512.162**

**Sədaqət ƏSGƏROVA**
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat Muzeyi
**sedaqet_askerova.73@mail.ru**

# AŞIQ AĞALAR MİKAYILOV YARADICILIĞI

**Açar sözlər:** poeziya, təhkiyə, rəqs, pantomim, can yanğısı, milli-etnik
**Keywords:** poetry, narrative, dance, pantomime, heartache, national-ethnic
**Ключевые слова:** поэзия, проза, танец, пантомима, душевная боль, национально-этнический

**Giriş.** Azərbaycan aşıq sənəti – şifahi ənənəli Azərbaycan musiqi mədəniyyətinin ən qədim sahələrindən biri olan aşıq sənətinin mühüm tərkib hissəsidir. Aşıq sənətində musiqi, poeziya, təhkiyə, rəqs, pantomim, teatr sənəti elementləri üzvi şəkildə birləşmişdir. Aşıq şeirinin janrları olan qoşma, gəraylı, müxəmməs, ustadnamə, qıfılbəndlə yanaşı, qoşmanın təcnis, cığalı təcnis növlərindən ibarətdir. Azərbaycan aşıq sənəti çox dərin tarixi kökləri olan və yüzilliklər boyu keçilən inkişaf yolunun məntiqi məhsuludur. Aşıq şeirinin janrları olan qoşma, gəraylı, müxəmməs, ustadnamə, qıfılbəndlə yanaşı, qoşmanın təcnis, cığalı təcnis növlərindən ibarətdir. Klassik aşıq havalarından bayatı, gəraylı, qoşma, təcnis və başqaları poetik formalara əsaslanır. "Kərəmi”, "Əfşarı”, "Kürdü”, "Dilqəmi”, "Yanıq Kərəmi” kimi aşıq havalarının ayrı-ayrı variantları mövcuddur.

Qədim zamanlardan aşıqlar elin ən hörmətli ağsaqqalı, məsləhətçisi, dostu sayılmışlar. Onlar həmişə el içində yaşamış, öz dövrlərinin, mühitlərinin bilikli, məlumatlı adamları, müdrik sənətkarları olmuşlar. Aşıq yaradıcılığında xalqımızın çoxəsrlik tarixi, xarici düşmənlərə qarşı mübarizəsi, əmək şəraiti, toy düyünləri rəngarəng bədii boyalarla öz ifadəsini tapmışdır.

Bir də aşıq sənəti sinkretik xarakter daşıyırdı. Burada musiqi, poeziya, təhkiyə, rəqs, pantomim, teatr sənəti elementləri üzvi şəkildə birləşmişdir. Yəni aşıq yaradıcı, ifaçı, pedaqoji əsasları özündə birləşdirirdi. Bu cəhətləri özündə cəmləşdirən və şagirdlər tərbiyə edən sənətkarlara “ustad aşıqlar ” da deyilirdi.

**Şirvanda ədəbi mühit və aşıq sənəti.** Şirvan aşıq məktəbi qədim köklərə söykənən şərəfli bir yol keçmişdir. XIII yüzilliyə söykənən mənbələrdə adları keçən Şirvanlı Molla Qasım, bir qədər sonralar Aşıq Paşa, XVIII-XIX yüzilliklərdə Aşıq İbrahim, Aşıq Oruc, Kolanlı Mustafa, XX yüzilin əvvəllərində Şirvan aşıq məktəbinin atası sayılan, repressiya qurbanı Mirzə Bilal kimi ustad ozanlar həqiqətən də Şirvan aşıqlığının sarsılmaz sütunlarıdır. Bu ölməzlər haqqında zaman-zaman araşdırıcılarımızın yazdıqlarından az da olsa oxumuşuq. Ancaq Şirvan aşıqlığının tarixi mənzərəsini daha aydın təsəvvür etmək üçün çox iş görmək gərəkdir. Repressiya qurbanı Salman Mümtazın başladığı, ancaq obyektiv səbəbdən axıra çatdıra bilmədiyi bu mövzu aktuallığını bu gün də itirməyib. Lakin bu sahədə görülənlərə kölgə salmaq fikrindən çox uzağıq.

Dəmir Mürsəl təxəllüslü müharibə əlili mərhum Mürsəl Mürsəlovun yazdığı “Şirvanlı Mirzə Bilalın həyat və yaradıcılığı” ilə bağlı dissertasiyası, filologiya elmləri doktorları, professor Əzizə Cəfərzadə, Cəfər Cəfərzadə, Rafael Hüseynov, Seyfəddin Qəniyevin araya-ərsəyə gətirdiyi onlarla kitab Şirvan aşıq məktəbinə güzgü tutan yorulmaz tədqiqatçı əməyinin məhsulu kimi çox qiymətlidir.

Son 10-15 ildə Şirvan aşıq məktəbinin görkəmli nümayəndələri ilə bağlı ciddi tədqiqatlar aparan alimlərimizdən filologiya üzrə fəlsəfə doktoru Qalib Sayılovun və jurnalist Tofiq Abdullayevin xidmətlərini də qeyd etməyi özümə borc bilirəm. Bu sahədə daha çox cəfakeşliyi ilə seçilənlərdən biri də filologiya üzrə fəlsəfə doktoru Yaqut Bahadurqızıdır. Böyük can yanğısı ilə Aşıq Əhməd Rüstəmovun həyat və sənətinə həsr etdiyi kitabı ona ilk alim şöhrəti gətirmişdi. Şirvan aşıq məktəbinin görkəmli nümayəndələri ilə bağlı yazdığı məqalələr, nəşr etdirdiyi kitablar, təşkil etdiyi yubiley tədbirləri (Aşıq Əhməd, Aşıq Şakir, Aşıq Mirzə Bilal, Aşıq Əhliman, Şirvanlı Mahmud Ağa, Həsrət Hüseynov, Eynulla Cəbrayılov və b.) bu gün də xatırlanmaqdadır [4, s. 320].

Eyni zamanda, professor Seyfəddin Qəniyev təkcə məşhur Şirvan aşıqlarının deyil, həmçinin uzun müddət elmi ictimaiyyətə məlum olmayan aşıqların həyat və yaradıcılığını araşdırıb, onların bu günə qalan nə irsləri varsa, bir yerə yığıb toplu halında nəşr etdirib. Şirvan aşıq mühitindən danışarkən yadımıza ilk növbədə XIX yüzilin sonu, XX yüzilin 30-cu illərində yaşamış məşhur sənətkar Aşıq Mirzə Bilal düşür.

**Aşıq Ağaların atası Aşıq Bilalın ömür yolu.** Aşıq Ağaların atası Mirzə Bilal 1872-ci il mart ayının 12-də Şirvan qəzasının Ağsu rayonunda Qəşəd kəndində anadan olmuşdur. Atası erkən vəfat etdikdən sonra o, qoyun-quzu otarmaqla ailəni dolandırmışdır. Təsadüfi deyil ki, onun uşaqkən çəkdiyi ağrılar, gördüyü haqsızlıqlar sonralar poetik xatirələrə dönüb şeirlərində öz əksini tapmışdır:

Nə haqq çatır dada, nə də ki bəndə,
Kəndxuda qurd olub soxulur kəndə,
Acından ağlayan kasıb görəndə,
Tuturlar atəşə, para neyləsin [3, s.54].

Atasının dostlarından Molla Veyis Əli oğlu ona yazıb-oxumağı öyrətdi. Bilalın gələcəyinə böyük inam bəsləyən Molla Veyis onu Şamaxıya aparıb Seyid Əzimin məktəbinə qoyur. Seyid Əzimin məktəbi Bilalın həyatında yeni mərhələ açır. O, Şamaxı ədəbi mühitində tədricən formalaşmağa başlayır.

Şirvanın mədəni həyatında özünəməxsus rol oynamış Mahmud ağa məclislərinin iştirakçısı olan Aşıq İbrahim keçirdiyi Şamaxı toylarının birində Bilalla tanış olur. Aşıq İbrahim Bilalı dinləyir və onu özünə şagird götürür. Aşıqlıq sənətinin sirlərini Aşıq İbrahimdən incəliklərinə qədər öyrənən Bilal aşıq kimi məşhurlaşır. Azərbaycanla yanaşı, Dağıstan, Gürcüstan, Orta Asiya məclislərinə də çağırılır.

Həmyerlisi Molla Xasının məktəbində oxumuş, sonra Şamaxıda böyük maarifçi Seyid Əzim Şirvaninin məktəbində təhsilini davam etdirmişdir. Burada o, ərəb-fars dillərini kamil öyrənmiş, klassik poeziyaya dərindən bələd olmuşdur. Şamaxı ədəbi mühiti – "Beytül-səfa" və mesenat Mahmud ağa Əhməd ağa oğlunun musiqi-şeir məclisi onu sənət dünyasına bağlayır. Mahmud ağa məclisində Əngəxaranlı Aşıq İbrahimlə tanışlığı onun uşaqlıqdan qəlbini ovsunlayan aşıq sənətinə məhəbbətini coşdurur. Ustadının məsləhəti ilə o, muğamlarımızın sirlərini "Şirvan bülbülü" Mirzə Məhəmmədhəsəndən mükəmməl şəkildə mənimsəyib, el məclislərinə ayaq açır. O, Şirvanda qırx ilə yaxın bu sənəti yaşatmış və onlarla şagird yetişdirmişdir.

**Aşıq Ağaların aşıq kimi yetişməsində atasının rolu**. Ağalar dünyaya gələndə atası Aşıq Mirzə Bilal sənətinin, istedadının coşub-qaynadığı, səsinin,

sədasının el-elatı başına götürdüyü çağlarında idi. Apardığı toylar, məclislər adla deyilirdi. Bu, o Mirzə Bilal idi ki, öz dəsti-xətti ilə Şirvan aşıq mühitində yeni bir məktəb açmış, ifaları ilə el şənliklərinin, məclislərin bəzəyi olmuşdur. Belə bir ab-havada dünyaya göz açıb böyüyən, sazın-sözün sədaları altında pərvazlanan Ağaların qəlbində sənət sevgisi yaranmağa başladı.

Ağlı kəsəndən eşitdiyi saz səsinin ahəngini tutmağa, eşitdiyi qoşmaların, şeirlərin mənasını dərk etməyə başladı, aşıq sənəti deyilən bir səmtə yönəldi.

Ustad atasından sənət dərsi aldı, ona qoşulub toylara, məclislərə getdi, sənət meydanında ilkin addımlar atdı. Mirzə Bilal övladında sənətə olan marağı görüb çox sevindi, onun timsalında sənətinin davamçısını hiss elədi, fərəhlənən ata oğluna artıq bir sənət yoldaşı, sənət dostu kimi yanaşmağa başladı. Ağalar ustad atasının xeyir-duası ilə əyninə aşıq libası geyib, əlinə saz götürdü, toylara, məclislərə getdi. Günlərin bir günü Aşıq Ağaların atası dahi sənətkar Mirzə Bilal ağrılı-acılı bir xəyanətə tuş gəldi, mənfur Stalin repressiyasının qurbanına çevrildi, ona "xalq düşməni" damğası vuruldu. Aşıq Ağalar sevimli atasını deyil, həm də sənət dostunu, ustadını itirdi. Nə idi Aşıq Bilalın günahı? Günahı onda idi ki, el-oba, camaat arasında böyük hörməti vardı. Xalq onun sənətindən, istedadından, toyları, məclisləri aparmaq məharətindən böyük zövq alırdı... Günahı onda idi ki, xalqını, elini, obasını, vətənini çox sevirdi. Öz istedadı ilə, zəngin yaradıcılığı ilə Azərbaycan aşıq sənətinin inkişafına təkan vermişdi. Bütün bunlar isə ozamankı rejimi narahat edirdi [5, s.174].

Bugünkü Şirvan aşıq sənəti Aşıq Mirzə Bilalın adı ilə bağlıdır. Aşıq Ağalar, Aşıq Abbas, Aşıq Şakir, Aşəq Əhməd, Aşıq Məmmədağa, Aşıq Bəylər, Aşıq Qurbanxan, Aşıq Bəylər də Mirzə Bilalın sənət sevgisindən su içmiş, ustad aşıqlar kimi yetişmişlər.

Aşıq Bilal haqqında bu gün biz daha çox onun dastançılığı, şairliyi, yaratdığı havacatlar əsasında danışırıq. Təəssüf ki, Mirzə Bilalın ustad səsi bizə gəlib çatmayıb. 1937-ci ildə bolşevik repressiyasının qurbanı olmuş aşıq haqqında uzun müddət danışmaq yasaq olub. Lakin xalqın yaddaşında Aşıq Bilalla bağlı yaşayan xatirələr, onun ölməz sənətkar kimi ürəklərdə və ağıllarda qalan əməlləri ölməzliyinin sübutu olub.

Mirzə Bilal keçmiş Şamaxı qəzasının (indiki Ağsu rayonu) ən qədim yaşayış yerlərindən biri olmuş Qəşəd kəndində anadan olub. S.Qəniyev bu barədə deyir ki, bu kənd Ləngəbiz dağı ilə Küzdrü düzünün görüşdüyü yerdə sanki bardaş qurub. Aşıq Bilalın atası Mustafa qonşu Bico kəndindən olan Azad yüzbaşının bacısı Badam xanımla 1870-ci ildə ailə qurub. Saz-söz vurğunu Mustafa kişi arzu edirmiş ki, heç olmasa övladlarının birinin gözəl səsi olsun, aşıq sənətinə yiyələnsin: "Bilal 6-7 yaşında olarkən atası hiss edir ki, onun oğlunun gözəl zümzümələri var. O, dastanlardan bildiyi kiçik şeir parçalarından balaca Bilala əzbərlətməyə başlayır. Bilal 8 yaşında olanda Mustafa kişi birdən-birə xəstələnir və 42 yaşında vəfat edir. Balaca Bilal gah quzu otarar, gah da çöl işlərində anasına kömək edərmiş. O, müxtəlif təsərrüfat işlərində çalışarkən xalq mahnılarını, atasından öyrəndiyi aşıq şeirlərini xüsusi şövqlə oxuyarmış".

XIX yüzilin axırlarında Şamaxıda maarif, məktəb və mədəniyyət, elmi, pedaqoji ictimai həyatda xüsusi rol oynayan ziyalılardan Mirzə Ələkbər Sabir, Məhəmməd Hadi, Abbas Səhhət, Camo Cəbrayılbəyli, Sultan Məcid Qənizadə, Hacı Səid Ünsizadə, Mahmud bəy Mahmudbəyov və başqaları ilə Aşıq Bilalın ünsiyyətdə olması, şübhəsiz, dünyagörüşünün formalaşmasına əhəmiyyətli təsir göstərib: "Təsadüfi deyil ki, Seyid Əzimin məktəbini uğurla başa vuran Bilal dostları arasında

Mirzə Bilal adı ilə tanınır, sevilir. O, ustadı Seyid Əzimdən ərəb və fars dillərini mükəmməl öyrənir, həmçinin klassik poeziyaya da dərindən bələd olur" [2, s. 136].

Mirzə Bilal aşıq sənətinin sirlərini daha dərindən öyrənmək üçün ustadı Aşıq İbrahimdən dərs alıb. Aşıq Bilal Şirvanın məşhur xanəndəsi Mirzə Məhəmmədhəsəndən muğam sənətinin sirlərini də yaxşıca öyrənir. O, məhz ustadı Aşıq İbrahimin məsləhətindən sonra 35 ildən artıq bənzərsiz xanəndə kimi bütün Qafqazda, İranda məşhur olmuş Mirzə Məhəmmədhəsənin yanına gəlir: "Məclislərində iştirak etdiyi, səsindən doymadığı məşhur xanəndəyə ürəyinin istəyini açır. Mirzə Məhəmmədhəsən o zaman bir neçə dəfə bu cavan aşığı dinləmişdi, səsini bəyənmişdi. Həmin vaxtdan Bilal Mirzə ilə məclislərə gedir. O, ustadının məharətlə oxuduğu "Şur", "Rast", "Humayun", "Segah", "Şüştər" muğamları ilə ona imtahan verir, halallıq alır. O vaxtdan başlayaraq el məclislərinə həm aşıq, həm də xanəndə kimi getməyə başlayır. Deyilənə görə, Mirzə Bilalın həm də xanəndə kimi çox gözəl səsi var imiş. Aşıq Bilal artıq məşhurlaşır. Mirzə Bilal 1918-ci ildə ermənilərin türklərə qarşı həyata keçirdiyi soyqırımı zamanı doğma Qəşəd kəndində əhalinin faciəyə düçar olmaması üçün əlindən gələni əsirgəməyib, kəndin könüllüləri ilə birgə bir çox insanları qırğından xilas edib.

Qeyd edək ki, bu kənd ermənilər tərəfindən yandırılıb, əhalinin bir hissəsi isə öldürülüb. O, Azərbaycan Demokratik Cümhuriyyəti dövründə Şamaxı İcraiyyə Komitəsinə üzv seçilib, 6-7 kəndə nümayəndə təyin edilib. Onu 1937-ci ilin iyun ayında həbs edirlər, əmlakı müsadirə olunur, həmçinin illər ərzində ustadlardan topladığı Şirvan aşıqlarının şeirlərini, dastanları, özünün yazdığı yüzlərlə şeiri olan dəftərləri, hətta cürə sazını da aparırlar. Beləliklə, Mirzə Bilal 1937-ci il noyabrın 26-dan 27-sinə keçən gecə ən yüksək cəza olan güllələnməyə məruz qalır. Mirzə Bilal güllələnərkən 65 yaşında imiş. 1953-cü ildə Stalinin ölümündən sonra SSRİ-nin bütün bölgələrində "xalq düşməni" adı ilə ölümə məhkum edilən insanlara SSRİ prokurorluğunun qərarı ilə bəraət verilir. Həmin şəxslərin arasında Aşıq Mirzə Bilalın da adı olur.

Aşıq Mirzə Bilalın sənət dostları və şagirdləri çox olub. Məlumdur ki, Şirvan aşıq mühitinin özəlliklərindən biri aşığın məclisi ansamblla – balabançı, dəmkeş xanəndə, qoşanağara (nağara) ilə idarə etməsidir: "Aşıq Bilalın ansamblında iştirak edib kamil sənətkar dərəcəsinə yüksəlmiş insanların bir qrupunun adı məlumdur. Balabançı dəmkeşlər kalvalı Əli, qonaqkəndli Cənnətalı, şamaxılı Ağababa, Musa, nağaraçılar – dədəgünəşli Ağasıxalı, ağsulu Tapdıq, xanəndələr – Çopur Zeynal, cəyirli Abbas və başqaları. Bilalın yaxın dostlarından biri məşhur balabançı Əli Kərimov olub" [1, s.183].

Azərbaycan aşıq sənətinin tanınmış nümayəndələrindən biri də Aşıq Şakirdir. Tədqiqatçı alim S. Qəniyev onun zamanında və indi də "Şirvanın bülbülü" kimi ad çıxardığını deyir: "Bu ustad sənətkar təkcə Azərbaycanda deyil, Gürcüstan, Dağıstan, Orta Asiya, habelə İranda da məşhur idi. Dəfələrlə onun məclislərində iştirak etmiş, Şirvan aşıq sənətinin çoxlu nümayəndələri, aşıq havacatları haqqında ondan müəyyən məlumatlar əldə etmişəm" [7, s.115].

Aşıq Şakirin səsində fitri bir ahəng, bu sənətin sirlərinə məharətli bələdlik vardı. Səs hədsiz doğma, axıcı və özünəməxsus idi. Çağırdıqca çağırır, sanki bitib-tükənmək bilmirdi. Ötən yüzilin 70-ci illəri Şakirin səsinin ən yetkin, coşub-çağlayan vaxtları idi. Şakirin səsi, sözü kamil çağında idi. 30 ildən çox idi ki, el məclislərində çalıb-çağırırdı. Artıq Şakir bir ustad sənətkar olaraq Şirvan aşıq məktəbinin tacına sahib olmuşdu. Şakirin sənəti, şəxsiyyəti haqqında el-obada əfsanələr yaranmışdı.

Amma ədəbiyyatşünas alim S. Qəniyev təəssüflənir ki, vaxtında bu sənətkarın el şənliklərindəki çıxışlarını mükəmməl şəkildə lentə almaq mümkün olmamışdı. Əgər bu olsaydı, indi həmin çağları daha yaxşı xatırlamaq mümkün olardı.

Sənətkarın özünəməxsus keyfiyyətlərini sadalayan tədqiqatçı qeyd edir ki, Şakirin səsində şirinlik vardı: "Çətini o, məclisə girənəcən idi. Meydanda bütün vücudu səsə, sehrə dönürdü. Onda, doğrudan da, səs sarıdan ilahi bir vergi var idi. Elə hey coşub-çağlayırdı, bitmək bilmirdi. Bu sənətin ruhuna dərindən bələdliyi vardı. Toyxana yerbəyer olandan sonra məclisə daxil olar, camaatla böyük ehtiramla salamlaşar, sonra isə sazı köynəkdən çıxarıb oxumağa başlayardı. Sazın və balabançı Həsrətin müşayətilə toyxananı iki dəfə o baş-bu başa dövrə vurar, var-gəl edərdi. Hiss olunurdu ki, o, bu müddətdə bir daha oxumaq, söz söyləmək üçün köklənir. Aşığın uca boyuna uyğun tikilmiş libası diqqəti xüsusi cəlb edirdi. Adətən o da, bütün aşıqlar kimi, məclisi ustadnamə ilə açırdı. Bütün məclislərdə də Şakir ilk ustadnaməsini Aşıq Bilaldan, klassik aşıqlardan, sonrakı ustadnaməsini isə ona bu sənəti öyrətmiş göyçaylı Mürsəldən söyləyərdi" [6, s.121-122].

Bu dövrdə aşıq sənəti şifahi ənənəli Azərbaycan musiqi mədəniyyətinin ən qədim sahələrindən biri idi. Qədim zamanlardan aşıqlar elin ən hörmətli ağsaqqalı, məsləhətçisi, dostu sayılmışlar. Onlar həmişə el içində yaşamış, öz dövrlərinin, mühitlərinin bilikli, məlumatlı adamları, müdrik sənətkarları olmuşlar. Aşıq yaradıcılığında xalqımızın çoxəsrlik tarixi, xarici düşmənlərə qarşı mübarizəsi, əmək şəraiti, toy düyünləri rəngarəng bədii boyalarla öz ifadəsini tapmışdır.

Bir də aşıq sənəti sinkretik xarakter daşıyırdı. Burada musiqi, poeziya, təhkiyə, rəqs, pantomim, teatr sənəti elementləri üzvi şəkildə birləşmişdir. Yəni aşıq yaradıcı, ifaçı, pedaqoji əsasları özündə birləşdirirdi. Bu cəhətləri özündə cəmləşdirən və şagirdlər tərbiyə edən sənətkarlara "ustad aşıqlar" da deyilirdi.

**Nəticə.** Qeyd etməliyik ki, milli-etnik və tarixi-mədəni kökləri ilə çox qədim dövrlərə gedib çıxan aşıq sənəti özünəməxsus təşəkkül və inkişaf yolu keçmişdir. Sinkretik bir sənət kimi aşıq yaradıcılığı tarixin müxtəlif dövlərində mürəkkəb sosial-siyasi, ictimai-mədəni, ədəbi-estetik şəraitlərdə inkişaf dialektikasını davam etdirmiş, sözün gerçək anlamında türkün genetik yaddaşının qoruyucusuna və daşıyıcısına çevrilmişdir.

Tarixi qədimliyi və əhatə etdiyi coğrafi genişlik bu sənətin regional xüsusiyyətlərini, milli məhəlli koloritin özünəməxsus cizgilərini də sistemli şəkildə öyrənməyi tələb edir. Məsələyə bu aspektdən yanaşdıqda, ayrı-ayrı aşıq mühitlərinin, o cümlədən Aşıq Ağalar Mikayılovun həyat və yaradıcılığının Azərbaycan aşıq sənəti kontekstində tədqiq olunub araşdırılması zəruri bir problem kimi ortaya çıxır.

Azərbaycan folkloru, o cümlədən aşıq sənəti XX əsrədək müəyyən istisnalar olmaqla, əsasən Sovet hakimiyyəti illərində daha sürətlə öyrənilməyə başlanmışdır. Nəzərə alaq ki, bu dövrdəki araşdırmalarda əsasən aşıq sənətinin ümumi məsələlərindən, ayrı-ayrı aşıqların həyat və yaradıcılığından bəhs olunmuşdur.

## İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT:

1. Axundov, S. Aşıqlar. Bakı: Azərnəşr, 1960, 183 s.
2. Araslı, H. Aşıq yaradıcılığı. Bakı: Birləşmiş nəşriyyat, 1960, 136 s.
3. Aşıq Bilal. İlk baharım, gəl görüm. Bakı: "Yazıçı", 1982, 54 s.
4. Bahadurqızı, Yaqut. Mən Muradlar övladıyam. Bakı, 2012, 320 səh.
5. Qəniyev, S. Şirvanlı Aşıq Ağalar. Bakı: "Nurlan", 2011, 174 s.
6. Qəniyev, S. Şirvan aşıq yaradıcılığında Vətən məhəbbəti, yurd istəyi. Bakı: ADPU, 1994
7. Qəniyev, S. Şirvan aşıqları. Bakı: APİ, 1993, 115 s.

***Sadagat Askerova***

### Creative work of Ashug Aghalar Mikayilov

***S u m m a r y***

The art of Azerbaijani ashugs is an important part of ashug work, which is one of the ancient fields of the Azerbaijani music culture of oral tradition. Music, poetry, narrative, dance, pantomime, and art of theatre are organically combined in the art of ashugs. Goshma, gerayli, mukhammas, ustadname, gifilband, as well as tajnis and jigalitajnis of goshma are genres of ashug poetry. The art of Azerbaijani ashugs has very deep historical roots and is a logical product of development way of hundreds of years. Bayati, gerayli, goshma, tajnis, and others of classical ashug songs are based on poetic forms. There are different kinds of ashug songs such as "Keremi", "Efshari", "Kurdu", "Dilgemi", "Yanig Keremi".

Since ancient times, ashugs had been considered as the most respected elderly, advisor, and friend of a nation. They had lived among the people and were well-informed and enlightened persons and wise men of their times. Our nation's multi-centurial history, its fight against foreign enemies, state of labour, wedding and ceremonies had been reflected with the colours of literature in the art of ashugs.

The art of ashugs was of syncretical in character. Music, poetry, narrative, dance, pantomime, and art of theatre are organically combined here. That is the art of ashug had combined the fundamentals of creativity, performance and pedagogy in itself. People with these characteristics and bringing up pupils were called "ashug the master".

It should be noted that the art of ashug with national-ethnic and historical-cultural roots going back to ancient times has passed a particular way of formation and development. Ashug work, as a syncretic art, had continued development dialect, in complex socio-political, public-cultural, literary-aesthetic conditions, during various periods of history. In a true sense of the word, it became protector and carrier of Turk's genetic memory.

Its historical age and geographical coverage require a systematic study of this art's regional characteristics and particular features of the national-local atmosphere. From this point of view, it is of utmost importance and necessity to study, in the context of the art of ashug in Azerbaijan, the life and creative work of separate ashugs, including Ashug Aghalar Mikayilov. Until the $20^{th}$ century with certain exceptions, Azerbaijani folk, as well as the art of ashug were rapidly studied mainly during Soviet times. It should be taken into account that those studies had covered general matters of ashug art, life and creative work of different ashugs.

***Садагат Аскерова***

**Творчество Ашуг Агалар Микаилова**

***Р е з ю м е***

Творчество азербайджанских ашугов является важной частью ашугского искусства – одного из древнейших направлений устной музыкальной формы устного народного творчества Азербайджана. В творчестве ашугов гармонично сочетаются элементы музыки, поэзии, прозы, танца, пантомимы, театрального искусства. Гошма, герайлы, мухаммас, устаднаме, гыфылбенд, а также подвиды гошма, теджнис, джигалы теджнис являются жанрами ашугского стиха.

Азербайджанское ашугское творчество является закономерным продуктом многовекового развития, основанного на глубоких исторических корнях. Баяты, гярайлы, гошма, теджнис и другие формы классических ашугских песен основываются на поэтические формы. Существуют разные вариации таких ашугских песен как «Кереми», «Афшари», «Кюрдю», «Дильгами», «Яныг Кереми».

Издревле ашуги считались самыми уважаемыми старейшинами, советчиками и друзьями в народе. Они всегда жили среди народа, являлись мудрыми, знающими, осведомленными о своем времени и окружении представителями искусства. Многовековая история, борьба против иноземных врагов, условия труда, свадьбы и празднования нашего народа красочно отражены в ашугском искусстве.

Ашугское искусство также носило синкретический характер. Здесь органично сочетаются элементы музыки, поэзии, прозы, танца, пантомимы, театрального искусства. Иными словами, ашуг сочетал в себе творческую, исполнительскую и педогогические начала. Представителей искусства, сочетающих в себе эти свойства, которые подготавливали учеников, также называли «ашуг наставник» («ашуг учитель»).

Следует отметить, что ашугское искусство, имеющее древние национально-этнические и историко-культурные корни, прошло уникальный путь становления и развития. Ашугское творчество, как синкретическое искусство, продолжило диалектику развития в разные исторические периоды, при сложных социально-политических, социально-культурных, литературно-эстетических условиях и в полном смысле слова стало носителем и защитником тюркской генетической памяти.

Историческая древность и охватываемая ею географическая широта требуют систематического изучения региональных особенностей этого вида искусства, а также особенностей национально-местного колорита. Если рассмотреть вопрос с этой точки зрения, как неизбежный вопрос предстает перед нами анализ и изучение разных ашугских кругов, а также жизни и деятельности Ашуга Агалара Микаилова в контексте азербайджанского ашугского искусства.

За некоторыми исключениями фольклор, в том числе ашугское искусство Азербайджана стало широко изучаться в советское время. Необходимо учитывать, что исследования этого периода охватывали в основном общие вопросы ашугского искусства, жизни и творчества отдельных ашугов.